# Torpaq uğrunda ölən varsa, VƏTƏNDİR



Nəcəfli Sadiq Nüsrət oğlu

**Biləsuvarda Vətən müharibəsində böyük rəşadət və igidlik göstərərək şəhidlik zirvəsinə ucalan Nəcəfli Sadiq Nüsrət oğlunun xatirəsi ehtiramla anıldı.**

Qəhrəman şəhidimizin anım mərasimində iştirak edən Biləsuvar Rayon İcra Hakimiyyətinin başçısı Faiq Qürbətov, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri və ictimaiyyətin nümayəndələri Sadiqin məzarını ziyarət edib, üzərinə gül-çiçək dəstələri düzdü. Sonra şəhidin ata ocağında valideynləri ilə görüşdülər. Mərasimdə qəhrəmanımızın şərəfli döyüş yolundan danışılaraq xatirəsi anıldı. Bildirildi ki, Azərbaycan xalqının qüruru, fəxri olan şəhidlərimizin xatirəsi bundan sonra da daim əziz tutulacaq və dövlətimiz hər zaman şəhidlik zirvəsinə ucalan igidlərimizin ailələrinin yanında olacaqdır. Tədbir zamanı qəhrəman şəhidimizin yaşadığı evə vurulan xatirə lövhəsinin açılışı oldu.

Nəcəfli Sadiq Nüsrət oğlu 22 iyun 2000-ci ildə Biləsuvar rayonunun Yuxarı Cürəli kəndində anadan olmuşdu. 2017-ci ildən Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (AAHM) təhsil alırdı. IV kurs Kursantı idi. Vətən müharibəsinin başlanması ilə bağlı "kiçik leytenant" rütbəsi ilə müharibəyə göndərildi. Nişanlı idi.

Sadiq Nəcəfli Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdu. Biləsuvar rayonunda dəfn olunub.

Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə vətənimizin ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Nəcəfli Sadiq Nüsrət oğlu ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

**Ərəstun ABDULOV,**
**"Respublika".**